Tarix və onun problemləri, № 4 2013

**TOHID MƏMMƏDOV**
*AMİ-nin Sumqayıt filialının "İctimai fənlər" kafedrasının baş müəllimi.*
**E-mail: tohid.mamedov@mail.ru**

# AZƏRBAYCAN RESPUBLIKASI DAXILI İŞLƏR NAZIRLIYININ STRUKTURLARI VƏ ONUN TƏRKIB HISSƏSI OLAN AZƏRBAYCAN RESPUBLIKASINDA İNTERPOLUN MILLI MƏRKƏZI BÜROSUNUN İNSAN ALVERINƏ QARŞI MÜBARIZƏSININ TARIXI ASPEKTLƏRI

*Açar sözlər:* Heydər Əliyev, İnterpol, insan alveri, Respublika, İlham Əliyev.
*Ключевые слова:* Гейдара Алиева, Интерпол, человеческие торговлей, республиканские, Ильхаму Алиеву.
*Key words:* Heydar Aliyev, Interpol, human trafficking, Republican, Ilham Aliyev

Ümummilli liderimiz Heydər Əliyev qeyd etmişdir ki, ...polis peşəsi ağır, çətin peşədir. Polis peşəsinə öz həyatını sərf edən insan bir çox xüsusi keyfiyyətlərə malik olmalıdır. Polis əməkdaşı birinci növbədə ölkəsinin dövlətinə, Konstitusiyasına, qanunlarına tam sadiq olmalıdır. Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik, iradəli, cəsarətli, qorxmaz olmalıdır. Polis əməkdaşı yalnız və yalnız qanun çərçivəsində fəaliyyət göstərməlidir, qanunun aliliyini daim rəhbər tutmalıdır, qanuna həmişə hörmət etməlidir, polis əməkdaşı vətəninə, torpağına hədsiz sədaqətli və istənilən vaxt öz vəzifəsini yerinə yetirərək həyatını belə qurban verməyə hazır olmalıdır. Azərbaycan bugünkü polisinin, daxili işlər orqanları əməkdaşlarının əksəriyyəti belə keyfiyyətlərə malikdir. Əgər belə olmasaydı Daxili İşlər Nazirliyi son illərdə artıq bütün ictimaiyyətimizə məlum olan nailiyyətləri əldə edə bilməzlər.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyev Azərbaycan respublikası Daxili İşlər Orqanlarının 90 illik yubileyində qeyd etmişdir. Polis orqanları 90 illik şanlı tarixi ərzində şərəfli yol keçərək dövlətçiliyimizin əsas dayaqlarından birinə çevrilmişdir. 1918-ci il iyulun 2-də asayişi mühafizə dəstəsinin yaradılması ilə, təməli qoyulan polis orqanları Azərbaycan xalq Cumhuriyyəti dövründə ölkənin müstəqilliyinin və daxili asayişinin təmin olunmasında mühüm rol oynamışdır. Cumhuriyyətin süqutundan sonrakı 70 il ərzində daxili işlər orqanları sovet dövlətinin siyasətini həyata keçirsələr də bütövlükdə təcrübə qazanmış, yüksək peşə hazırlığı əldə etmiş və təşkilatı cəhətdən möhkəmlənmişdir.

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə yaranan mürəkkəb vəziyyət, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü şəraitində siyasi – iqtisadi böhranın dərinləşməsi qanunsuz silahlı dəstələrin mövcudluğu, qanunların fəaliyyətsizliyi, hərc - mərcliyin və cinayətkarlığın vüsət alması, ölkəyə rəhbərlik edənlərin yaranmış vəziyyətin çıxış yolu tapa bilməməsi Azərbaycanda dövlətçiliyin itirilməsi təhlükəsinə gətirib çıxarmışdır.

Belə bir şəraitdə 1993-cü il iyunun 15-də xalqın israrlı tələbi ilə siyasi rəhbərliyə qayıdan ümummilli lider Heydər Əliyev qanunçuluq və dövlətçilik prinsipləri rəhbər tutaraq hökm sürən özbaşınalığa son qoymuş, ölkəmizi vətəndaş müharibəsi təhlükəsindən xilas edərək ictimai-siyasi sabitliyin təmin edilməsinə, Azərbaycan dövlətçiliyinin qorunub saxlanılmasına və demokratik, hüquqi dövlətin möhkəm əsaslarla qurulmasına nail olmuşdur.

Bu dövr ərzində Azərbaycan polisi cinayətkarlığa qarşı mübarizədə qətiyyətli addımlar atmış, qanunun aliliyini, insanların təhlükəsizliyinin təmin olunmasını, ictimai asayişin qorunması kimi çətin vəzifəsinin öhdəsindən layiqincə gəlmişdir.

Daxili İşlər orqanlarının şəxsi heyyəti Dağlıq Qarabağ münaqişəsi başlanandan sonra erməni təcavüzünün alət edilməsində ön sıralarında vuruşmuş, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda döyüşlərdə 932 şəhid vermiş, ön cəbhədə və arxa cəbhələrdəki igidliklərinə görə 63 nəfər Azərbaycan Respublikasının Milli qəhrəmanı adına layiq görülmüşlər.

Bu gün Azərbaycan polisi inkişaf və yeniləşmə mərhələsini yaşayır.

Müasir dövrün çağırışlarına cavab olaraq aparılan islahatlar nəticəsində onun üzərinə qoyulan vəzifələrin dairəsi genişlənir. Cinayətlərin qarşısının alınması ilə yanaşı insan hüquq və azadlıqlarının qorunması Daxili İşlər Orqanlarının əsas prioritetlərindən birinə çevrilir. Polis orqanlarının fəaliyyətini təkmilləşdirmək iş keyfiyyətini, peşə hazırlığını və bilik səviyyəsini artırmaq məqsədilə yeni axtarış və informasiya texnologiyaları ilə təmini, maddi – texniki bazanın ən müasir tələblər səviyyəsinə çatdırılması və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində lazımi tədbirlər görür.

Bu isə öz növbəsində polis orqanlarının məsuliyyətini artırır. Hakimiyyətin nümayəndəsi kimi xalqa xidmət etməyə borclu olan polis qətiyyəti, pe.əkarlığı və mədəniyyəti ilə onun daha böyük inamını qazanmalıdır. Polisin sosial funksiyalarını effektli yerinə yetirməyə imkan verən, müasir dövrün tələblərinə və dünya təcrübəsinə cavab verən müasir iş metodları tətbiq etməli, institusional islahatlar davam etdirilməli, cinayətkarlığa qarşı mübarizə daha da gücləndirilməlidir.

Əminəm ki, xalqa, vətənə, dövlətçiliyə və peşə borcuna sadiq olan daxili işləror orqanlarının əməkdaşları bundan sonra da Azərbaycan Respublikasına ləyaqətlə xidmət edəcək, cinayətkarlığa qarşı mübarizədə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində öz vəzifələrini vicdanla yerinə yetirəcəklər. (1 səh. 17-21-22)

Yuxarıda qeyd edildiyi kimi, insan hüquqlarının qorunması məqsədilə Daxili İşlər Orqanlarının bütün strukturları və onun tərkib hissəsi olan Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu bir-biri ilə və Respublikamızın hüquq – mühafizə orqanları və beynəlxalq cinayət polisi təşkilatı İnterpolun üzvü olan ölkələrin Milli – Mərkəzi Büroları ilə Cinayətkarlığa və onun təhlükəli növlərindən olan insan alverinə qarşı mübarizə aparmaq məqsədilə İnformasiya mübadiləsini həyata keçirən bir təşkilata çevrilmişdir.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə Nazir rəhbərlik edir, 3 Nazir müavini və Daxili Qoşunların komandası Nazir müavini vəzifəsini icra edir. Katiblik (baş idarə səlahiyyəsi), Növbətçi hissələri İdarəetmə xidməti (idarə səlahiyyətli), Baş cinayət Axtarış İdarəsi, Baş İstintaq və Təhqiqat İdarəsi, Baş mütəşəkkil cinayətkarlıqla mübarizə idarəsi, Baş Narkotiklərlə mübarizə İdarəsi, Daxili Təhlükəsizlik İdarəsi, xüsusi Əməliyyat – Axtarış Tədbirləri İdarəsi, İnsan alverinə qarşı mübarizə İdarəsi, Kriminalitik Tədqiqatlar İdarəsi, baş əməliyyat və Statistik İnformasiya İdarəsi, Baş İctimai Təhlükəsizlik İdarəsi, Daxili Qoşunların Baş İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi, Baş Mühafizə İdarəsi, Baş pasport, qeydiyyat və Miqrasiya İdarəsi, Səfərbərlik İşləri və Mülki Müdafiə Şöbəsi, Azərbaycan Respublikasında beynəlxalq cinayət polisi təşkilatı, İnterpolun Milli Mərkəzi Bürosu (Baş İdarə Səlahiyyətli) Baş Kadrlar İdarəsi, Daxili Tədqiqatlar İdarəsi, Şəxsi Heyətlə İş idarəsi, Beynəlxalq Əməkdaşlıq İdarəsi, Baş İnformasiya – Kommunikasiya İdarəsi, Mətbuat xidməti (İdarə səlahiyyətli) Maliyyə - Plan İdarəsi, Təchizat İdarəsi, Tibb İdarəsi Komendant xidməti (idarə səlahiyyətli), əsaslı Tikinti İdarəsi, İdman Cəmiyyəti (idarə səlahiyyətli).

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturuna daxil olan Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi, Daxili Qoşunların Hərbi hissə və bölmələri, Daxili Qoşunların Ali Hərbi Mərkəzi Polis Akademiyası (baş idarə səlahiyyətli) sıravi və kiçik rəis heyəti hazırlayan məktəb, Nizami polis hissələri, Bakı şəhər Baş Polis İdarəsi, Gəncə şəhər Baş Polis İdarəsi, digər ərazi və ixtisaslaşdırılmış polis orqanları və qurumları. (2)

Yuxarıda qeyd etdiyimiz kimi beynəlxalq cinayətkarlıqla mübarizədə və onun təhlükəli növlərindən biri olan insan alverinə qarşı DİN-in bütün strukturları və Hüquq mühafizə orqanları ilə birgə uğurlu mübarizə aparır və aparmaqdadır

Yeri gəlmişkən qeyd edim ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq cinayət polisi təşkilatı "İnterpolun" Baş Assambleyasının 8-10 noyabr 1992-ci il tarixdə Sneqalın Dakar şəhərində keçirilən 61-ci sessiyasında bu mötəbər təşkilatın bərabər hüquqlu üzvlüyünə qəbul edildi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 fevral 1983-cü il tarixli 72 nömrəli qərarı ilə fəaliyyətə başladı.

Azərbaycan Respublikasında İnterpolun MMB - nun strukturu aşağıdakı qaydadadır. Təşkilati – analitik şöbə, ümumi cinayətkarlığa qarşı mübarizə şöbəsi, Texniki təminat şöbəsi, Maliyyə şöbəsi, təminat hissəsi növbətçi hissə funksiyasını yerinə yetirir. Azərbaycan Respublikasında İnterpolun MMB - da 50-dən artıq əməkdaş fəaliyyət göstərir, əməkdaşlar ərəb, fransız, ingilis, ispan, çin dillərindən istifadə edərək bütün qitələri əhatə edən coğrafi bölgü prinsipinə raiyyət etməklə fəaliyyət göstərirlər. (3 səh 5)

Qeyd olunduğu kimi Azərbaycan Respublikasında İnterpolun MMB – nun fəaliyyət istiqamətlərindən birini insan alverinə qarşı mübarizə təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsi şəxsin azadlıq hüququnu tanıyır və bu hüquq yalnız qanunla nəzərdə tutulmuş qaydada tutma, həbsə alma və ya azadlıqdan məhrum etmə yolu ilə məhdudlaşdırıla bilər. Həmçinin azadlıq hüququ qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəsin sərbəst hərəkət edə bilməsini, özünə yaşayış yeri seçə bilməsini, Azərbaycan Respublikası vətəndaşının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququnun olmasını nəzərdə tutur.

13 may 2013-cü il tarixli Qanuna əsasən Azərbaycan respublikası BMT – nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyanı tamamlayan insan alverinin, xüsusən qadın və uşaq alverinin qaşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" 15 noyabr 2000-ci il tarixli Protokoluna tərəf kimi qoyulmuşdur. Bundan sonra imzalanan "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə üzrə Milli fəaliyyət planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 may 2004-cü il tarixli sərəncamı (birinci Milli Fəaliyyət Planı), 28 iyun 2005-ci il tarixində "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsinə səbəb olmuş və beləliklə də, 30 sentyabr 2005-ci il tarixində insan alveri cinayət əməli. Azərbaycan Respublikasının Cinayət məcəlləsində müstəqil cinayət növü kimi təsbit edilmişdir. (4 səh 60-61)

Azərbaycan Respublikası Prezidentinin 6 may 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı" na uyğun olaraq, 2004-cü ildə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin Strukturlarında İnsan Alverinə Qarşı Mübarizə İdarəsi yaradılmışdır.

Yarandığı gündən İnsan alverinə qarşı mübarizə İdarəsinin əsas fəaliyyət istiqamətini, şəxsiyyətin şərəf və ləyaqətini alçaldan insan alverinin qarşısının alınmasını, onunla mübarizəni, insan alveri qurbanlarının müdafiəsini təmin edən, insan və vətəndaş hüquq və azadlıqlarını Azərbaycan Respublikasının Konstitusiyasına, qanununa və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq müvafiq cinayətkar qəstlərdən qoruyan, bu məqsədlərlə qa-

nunvericiliklə müəyyən edilmiş qaydada təhqiqat orqanı funksiyasını yerinə yetirən və əməliyyat – axtarış fəaliyyətini həyata keçirən ixtisaslaşmış struktur qurumdur. İdarə telefon yardım xətti, təhlükəsiz sığınacaq və əməkdaşlıq fəaliyyəti üzrə qeyri – hökümət əlaqə orqanıdır. İdarə insan alverinə qarşı mübarizə - əməliyyat – axtarış fəaliyyətini həyata keçirir və bu sahədə Daxili İşlər Nazirliyinin struktur hissələrinə və ərazi polis orqanlarına əməli köməklik göstərir. (5)

Müstəqil demokratik hüquqi dövlət olan Azərbaycan respublikasında insanların hüquq və azadlıqlarını məhdudlaşdıran insan alverinə qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun fəaliyyətini və qeyri – hökümət təşkilatları və beynəlxalq təşkilatlarla əlaqəli şəkildə mübarizə aparmaları ilə əlaqədar bir neçə faktı qeyd etmək yerinə düşərdi.

2 – 19 yanvar 2009-cu il tarixdə Fransanın Sion şəhərində insanlıq əleyhinə cinayətlərlə bağlı 1-ci beynəlxalq seminar keçirilmişdir, həmin seminar beynəlxalq cinayət polisi təşkilatı İnterpol xətti ilə olduğuna görə Azərbaycanda İnterpolun Milli Mərkəzi Bürosunun əməkdaşları iştirak etmişlər. (6 səh 13)

8 - 9 iyun 2011-ci il tarixdə Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi inkişaf naminə təşkilat SUAM – ın insan alveri və qeyri – qanuni miqrasiya ilə mübarizə üzrə, alt işçi qrupunun növbəti iclası keçirilmiş və bu tədbirdə Daxili İşlər Nazirliyinin insan alverinə qarşı mübarizə idarəsinin və Azərbaycanda İnterpolun Milli Mərkəzi Bürosunun əməkdaşları iştirak etmişlər. Həmin tədbirdə insan alveri ilə bağlı maraqlı müzakirələr aparılmış və məruzələrlə çıxış etmişlər. (7 səh 12)

Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun DİN-nin strukturları, Hüquq Mühafizə Orqanları və DİN-nin insan alverinə qarşı müxtəlif illərin insan alveri qurbanlarının ölkəyə gətirilməsində fəal iştirak etmişlər.

29 – 30 yanvar 2002-ci tarixdə Belarusiyanın Minsk şəhərində Müstəqil dövlətlər birliyinin insan alverinə qarşı mübarizə mövzusunda toplantı keçirilmişdir. Həmin toplantıda cənab DİN-i Ramil bUsubov, İnterpolun Milli Mərkəzi Bürosunun iştirak etmişlər, orada insan alverinin qarşısının alınması üçün maraqlı müzakirələr olmuşdur. (8 №14 (2573))

2004-cü ilin avqustun 26-da Basu şəhərində "Həyat Reseensi" Otelində Atət-in Azərbaycandakı nümayəndəliyi Azərbaycan Respublikasının insan alveri probleminin qarşısının alınmasında mübarizə ilə bağlı "Milli fəaliyyət" proqramının həyata keçirilməsində QHT – ların rolu və yeri mövzusunda seminar keçirilmişdir. Seminar iştirakçıları ölkə Prezidenti İlham Əliyevin 2004-cü ilin mayında qəbul etdiyi inan alverinə qarşı mübarizə üzrə Milli fəaliyyət proqramı ətrafında çıxışlar ediblər. (9 №30(2696))

2006-cı ilin iyunun 21-də Respublikanın Daxili İşlər Naziri Ramil Usubov Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Burunson Makkinlini qəbul etmişdir. Qonağı səmimiyyətlə salamlayan Daxili İşlər Nazirinin fəaliyyət istiqamətləri və kimnogen durumla bağlı qısa məlumat vermiş müstəqilliyimizin ilk illərində bir tərəfdən Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın işğalı, digər tərəfdən şəriştəsiz iqtidarın ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üzbəüz qoyduğunu, bütün bunların, krimnogen durumun nəzarətdən çıxardığını xatırlatmışdır. Qeyd olunmuşdur ki, yalnız xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan müdrik dövlət xadimi Heydər Əliyevin titanik səyləri nəticəsində Azərbaycan bir dövlət kimi, məhv olmaq təhlükəsindən qurtuldu. 1995-ci ilin fonundan cəmiyyət həyatının bütün sahələrində müsbət dəyişikliklər köklü irəliləyişlər mərhələsi başladı. 1997 – 2000-ci illərdə polisin fəaliyyətinin də təkmilləşdirilməsi üçün, demokratik prinsiplərə söykənən yeni qanunlar qəbul

edildi. Bununla həm də, vətəndaşların konstitusion hüquqlarının qorunması təmin olundu və xarici investorların fəaliyyəti üçün münbit şərait yaradıldı.

Daxili İşlər Naziri Ramil Usubov cinayətkarlığa qarşı mübarizə sahəsində görülən müsbət işlərlə yanaşı problemlərdən də danışmış, bu sırada transmilli mütəfəkkil cinayətkarlığa bütün dünyanı narahat edən terrorizm və narkotik maddələrin qaçaqmalçılığı, qanunsuz miqrasiya və insan alverinə qarşı mübarizə sahəsində birgə mübarizənin vacibliyini vurğulamışdır. (10 №25(2790))

Ulu öndərimizin yorulmaz səyləri, sonralar möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ali diqqət və qayğısı, DİN – nin rəhbərliyinin gündəlik nəzarəti və tələbkarlığı sayəsində Daxili İşlər Orqanlarının xidməti fəaliyyəti təkmilləşmiş, strukturu formalaşmış və dünya standartlarına cavab verə bilən səviyəyə çatmışdır. Bu sırada, necə deyərlər, DİN - in xidmətlərindən biri də insan alverinə qarşı mübarizə idarəsidir. Ən yaxşı, ən təqdirəlayiq olanı budur ki, insan alverinə qarşı Mübarizə İdarəsi öz xidməti fəaliyyətini ilbəil inkişaf etdirir, Avropa standartlarına surətlə inteqrasiya olunur, onun xidmətinə olan tələblərin, ehtiyacın, diqqət və qayğının fonunda dəyərli nəticələr qazanır.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 133 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının insan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planını (2009 – 2013-cü illər)" - nin ikinci bəndinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydalarının təsdiq edilməsi" barədə qərar qəbul etmişdir.

İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin həyata keçirilməsi üçün İdarələrarası Komisiya yaradılmışdır. İdarələrarası Komisiyanın tərkibi Azərbaycan Respublikası Daxili İşlər, Milli Təhlükəsizlik, Təhsil, Səhiyyə, Ədliyyə, Xarici İşlər, əmək və əhalinin sosial müdafiəsi, gənclər və İdman, Mədəniyyət və Turizm Nazirliklərinin, Azərbaycan Respublikası Baş Prokrorluğunun, Dövlət Kömrük Komitənin, ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsinin, Dövlət Sərhəd xidmətinin Dövlət Miqrasiya xidmətinin nümayəndələrindən ibarət olaraq İdarələr arası Komissiyanın iclası keçirilməsi nəzərdə tutulmuşdur. (11 №32(2953))

8 oktyabr 2010-cu il tarixdə Milli Məclisin Növbəti iclası keçirildi. İclasda İnsan alverinə qarşı mübarizə üzrə Milli Kordinator, Daxili İşlər Nazirinin müavini Vilayət Eyvazovun illik məlumatı dinlənilmişdir.

O, öz çıxışında Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə sahəsində görülmüş işlərə dair illik hesabatın təfərrüatlarına keçməzdən əvvəl problemin həlli yönümündə dünyada gedən proseslərin ümumi mənzərəsini xatırlatmışdır. Bildirmişdir ki, bu həm də beynəlxalq təcrübə ilə müqayisədə ölkəmizdə həyata keçirilən dövlət siyasətinin və konkret tədbirlərin daha obyektiv və gerçək dəyərləndirilməsi baxımından önəmlidir.

Beynəlxalq əməkdaşlığın səmərəliliyi baxımından ayrı-ayrı vaxtlarda BMT-nin Beynəlxalq Miqrasiya və Beynəlxalq Əmək Təşkilatının Azərbaycandakı nümayəndələrinin, Amerika Hüquqşünaslar Assosasiyasının, ABŞ-ın Azərbaycan Respublikasındakı səfirliyinin mütəxəssisləri və ekspertləri ilə görüşlər keçirilmiş, məsləhətləşmələr aparılmışdır.

Qarşılıqlı əlaqələr çərçivəsində ölkəmizdə "İnsan alverinə qarşı mübarizə üzrə cavab mexanizmlərinin gücləndirilməsi", "İnsan alveri qurbanları üçün, sığınacağın və Qaynar xəttin idarə olunması üzrə ölkə potensialının artırılması", "Azərbaycanda insan alverinin qarşısının alınmasında orta məktəb təhsilinin əhəmiyyəti" "Uşaqların insan alverinə məruz qalmasının qarşısının alınması layihələri üzrə müzakirələr aparılmışdır. Uşaq baxımsızlığının profilik-

tikası itiqamətində də, tədbirlər təşkil edilərək internat məktəblərini bitirən 128 gənc və yeniyetmə üçün insan alveri mövzusunda seminar keçirilmişdir. (12 №38(300))

2011-ci ilin dekabr ayının 1-də Bakıda İnsan alveri qurbanlarına yardım və sosial reinteqrasiya modelinin inkişafına aid dördüncü regional müşavirə keçirilmişdir.

Müşavirədə ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayzə, Daxili İşlər Nazirliyinin insan Alverinə Qarşı Mübarizə İdarəsinin, Azərbaycan respublikasında İnterpolun Milli Mərkəzi bürosunun, Beynəlxalq Miqrasiya Təşkilatının əməkdaşları, Şərqi Avropa ,cənub-şərqi Avropa və orta Asiya üzrə regional direktor xanım Renate Held və digər şəxslər bir birinin əhəmiyyətindən danışmışlar. Bildirmişlər ki, insan alveri ilə mübarizə vacib bir məsələdir. Azərbaycanda bu sahədə çox böyük işlər görülür, bir sıra lahiyələr həyata keçirilir. Azərbaycanda insan alveri ilə bağlı mükəmməl qanun vericilik bazası yaradılmışdır. Göstərilən müşavirədə qeyd olunmuşdye ki, 2010 – cu il də dünyada 33 min insan alveri qurbanı müəyyən edilmişdir. (12 №45(3064))

12 mart 2012-ci il tarixdə DİN-nin İnsan Alverinə Qarşı Mübarizə İdarəsində polis zabitləri üçün insan alveri cinayətlərinin istintaqı mövzusunda seminar keçirilmişdir, həmin seminarda qeyd edilmişdir ki, ölkə prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2006-cı ildə İAQMİ-nin yaranmasından sonra cinayətkarlığın bu növü ilə mübarizənin gücləndirilməsi hətta region ölkələrində rast gəlinməyən bir çox tədbirlərin həyata keçirildiyini, buna misal olaraq insan alveri qurbanlarına sığınacaqların yaradılmasını, onlara birdəfəlik pul müavinətlərinin ayrıldığını nəzərə çatdırılmışdır.

Yuxarıda göstərilən tədbirdə iştirak edən ekspert Ştriz dünyada insan alverinin hər il təxminən 9 milyard dollar gətirdiyini və qurbanlar sırasında iqtisadi baxımdan zəif inkişaf etmiş ölkələrin vətəndaşlarının çoxluq təşkil etdiyini və hazırda dünyada 12,3 milyon şəxsiz məcburi əməyin qurbanı olduğunu, 270 milyon uşağın məcburi əməkdən əziyyət çəkdiyini bildirmişdir. (14 №91(3016))

Nəticə olaraq bildirirəm ki, Ümummilli Liderimiz Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi ilə Transmilli mütəşəkkil cinayətkarlığa onun ən təhlükəli növlərindən olan insan alverinə qarşı mübarizə respublikamızda hüquq-mühafizə fəaliyyətinin başlıca istiqamətlərindən biri olmuş və bu gün də olmaqla göstərilən sahəyə dövlət və qeyri hökümət təşkilatları, həmçinin mötəbər beynəlxalq qurumlar və onların ölkəmizdəki təmsilçiləri səviyyəsində böyük diqqət yetirilir.

**İstifadə olunuş ədəbiyyat:**

1. İlham Əliyev Azərbaycan respublikasının Prezidenti, Bakı şəhəri, 1 iyul 2008-ci il "Azərbaycan polisinin yubileyi" Bakı "Apostrof" çap evi – 2008-ci il, səh 296.
2. www.mia.gov.az
3. Azərbaycan Respublikasında İnterpolun MMB – nun cari arxivi 2005 –ci il əvəzində MMB-nun cari arxivi 2005-ci il ərzində MMB – nun xidməti fəaliyyətinə dair arayış 20 səhifədə.
4. İ.Z. Qurbanov İnsan alveri şəxsin azadlığı əleyhinə olan cinayət növü kimi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Məlumat Bülleteni. №2/ 2011-ci il.
5. http://iaqmi.gov.az
6. Azərbaycan Respublikasında İnterpolun MMB – nun cari arxivi, 2009-cu ilin illik arayışı əl yazma ilə 3 səhifə.

7. Azərbaycan Respublikasında İnterpolun MMB – nun cari arxivi 2011-ci ilin illik arayışı, 27 səhifə əl-yazma şəklində .
8. Mübariz keşikdə qəzeti, 7 fevral 2011-ci il.
9. Mübariz keşikdə qəzeti, 2 sentyabr 2004-cü il.
10. Mübariz keşikdə qəzeti, 22 iyun 2006-cı il 4 səhifədə.
11. Mübariz keçikdə qəzeti, 20 avqust 2009-cu il 4 səhifədə.
12. Mübariz keçikdə qəzeti, 14 oktyabr 2010-cu il 4 səhifədə.
13. Mübariz keçikdə qəzeti, 8 dekabr 2011-ci il 4 səhifədə.
14. Mübariz keşikdə 15 mart 2012-ci il 4 səhifədə.

**ТОHID МАМЕДОВ**
*ATI - Сумгаит филиал учителя*

## СТРУКТУРЫ МИНИСТЕРСТВА ВНУТРЕННИХ ДЕЛ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ БОРЬБЫ НАЦИОНАЛЬНОГО БЮРО ИНТЕРПОЛА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ ПРОТИВ ТОРГОВЛИ ЛЮДЬМИ

Для защиты прав человека, которые являются неотъемлемой частью органов внутренних дел и органов Азербайджанской Республики Интерпола – правоохранительным органам Республики Центрального бюро стран-членов Интерпола по борьбе с торговлей человеческими существами с целью национально-нравственных бюро осуществлять обмен информацией и преступность непримиримую борьбу с опасным типом.

**TOHID MƏMMƏDOV**
*head teacher of the AMİ Sumgait branch*

## THE AZERBAIJAN REPUBLIC STRUCTURES OF THE MINISTRY OF INTERNAL AFFAIRS AND NATIONAL CENTRE OF THE INTERPOL IN THE AZERBAIJAN REPUBLIC HIS COMPOSITION PART HISTORICAL ASPECTS OF FIGHTING AGAINST THE MAN TRADE OF BUREAU

Protecting of the Human Rights implement information exchange national, central bureau of the INTERPOL law-enforcement organs of our republic, organic countries being of the INTERPOL with the purpose of to fight against the man trade with the national spiritual bureaus in the Azerbaijan Republic and they fight against this dangerous kind of the criminality irreconcilable.

***Rəyçilər: t.ü.f.d.A.Rzayev, t.e.d.İ.X.Zeynalov***
***Azərbaycan Müəllimlər İnstitutu Sumqayıt filialı, “İctimai fənlər” kafedrasının 21.10.2013-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (pr. №02).***